www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-07 (1768) 14 aprel 2023-cü il



## Yüksək insani keyfiyyətlərə malik görkəmli alim

**ATU-da akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş elmi-praktik konfrans keçirilib**

səh. 2

### "Heydər Əliyev İli" çərçivəsində ağacəkmə aksiyası keçirilib

səh. 2

### Tədris Cərrahiyyə Klinikası müasir cihazla təmin olunub

səh. 6

### Böyük şəhərlərin xəstəliyi – yaz allergiyası

səh. 6



### Ümumdünya Səhiyyə Təşkilatı: 75 il sağlamlığın keşiyində

"Hamı üçün sağlamlıq" kampaniyası çərçivəsində ATU-da tədbir təşkil olunub

səh. 3

### Alimliyə aparan yol tələbəlikdən başlayır

*ATU-nun fakültə Tələbə Elmi cəmiyyətlərinin konfransları baş tutub*

səh. 4-5

### Əsgər üçün ürək sözləri

*ATU-nun müəllim və tələbələri "Əsgər kitabxanası"na yüzlərlə kitab toplayıb*

səh. 6



### Güclü Azərbaycan dövləti bütün təhdidlərə cavab vermək iqtidarındadır

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı ATU-da tədbir keçirilib

səh. 3

# "Heydər Əliyev İli" çərçivəsində ağacəkmə aksiyası keçirilib



**Səhiyyə, Ekologiya və Təbii Sərvətlər nazirlikləri tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə aprelin 8-də Müşfiqabad qəsəbəsi ərazisində ağacəkmə aksiyası təşkil olunub.**

Nazirliklərin rəhbər şəxslərinin və əməkdaşlarının iştirakı ilə baş tutan tədbirin məqsədi ölkəmizdə ekologiyanın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, eyni zamanda Ümummilli Liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdir.

Tədbirdə çıxış edənlər Ulu Öndərin respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə ölkəmizdə ekoloji sabitliyin qorunması və ətraf mühitin mühafizəsi məsələlərinə xüsusi diqqətlə yanaşmasını qeyd ediblər. Vurğulanıb ki, onun müəyyən etdiyi siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev ətraf mühitin mühafizəsi və əhalinin sağlamlığı məsələlərinə daim diqqət yetirir.

Ağacəkmə aksiyasında ATU-nun rektoru, professor Gəray Gəraybəyli də iştirak edib.

# Səhiyyə Nazirliyinin 9109 "Çağrı Mərkəzi" istifadəyə verilib

**Səhiyyə Nazirliyinin müharibə veteranları və şəhid ailələrinə psixoloji yardım və tibbi reabilitasiya üzrə 9109 qısa nömrəli "Çağrı Mərkəzi" 1 aprel 2023-cü il tarixdən istifadəyə verilib.**

Müharibə veteranlarına və şəhid ailələrinə göstərilən psixoloji dəstəyin təkmilləşdirilməsi, tibbi reabilitasiya xidmətlərinin mütəmadiliyinin təmin edilməsi, sahəvi fəaliyyətlərin digər dövlət qurumları ilə koordinasiyalı şəkildə təşkili məqsədilə Səhiyyə Nazirliyinin 9109 qısa nömrəli "Çağrı Mərkəzi" yaradılıb.

"Çağrı Mərkəzi"nə daxil olan müraciətlərin operativ şəkildə həlli məqsədilə aidiyyəti dövlət qurumları ilə inteqrasiya olunmuş "Müharibə veteranları və şəhid ailələrinə psixoloji yardım və tibbi reabilitasiya üzrə Vahid Nəzarət Platforması" formalaşdırıb.

9109 "Çağrı Mərkəzinə" müraciətlər həftənin bütün günləri, günün istənilən vaxtında qəbul olunur.

# 2023-cü ildə e-bülleten sisteminə keçid nəzərdə tutulub

**Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi tərəfindən "Elektron xəstəlik vərəqəsi" (e-bülleten) informasiya sistemi hazırlanıb. Layihə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə əmək qabiliyyətinin müvəqqəti itirilməsi haqqında vərəqələrə dair məlumatların vahid elektron reyestrdə birləşdirilməsi, kağız daşıyıcıların saxlanması və emalı ilə bağlı böyük işdən uzaqlaşması, o cümlədən sığortaçıların xərclərinin azaldılması və dövlət büdcəsinin yükünə qənaət edilməsi məqsədi ilə həyata keçirilir.**

Bu təşəbbüsə əsasən, tibb müəssisəsi tərəfindən yazılan və müvafiq tibb işçisinin gücləndirilmiş elektron imzası ilə təsdiq edilmiş elektron xəstəlik vərəqəsi müvəqqəti əmək qabiliyyətinin itirilməsinə görə müavinətlərin təyin edilməsi və ödənilməsi üçün əsas olacaq. İşəgötürənlər üçün e-bülleten Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sistemində, tibb işçiləri üçün isə "e-Səhiyyə" portalı və mobil tətbiqində əlçatan olacaq.

Xəstəlik vərəqəsinin elektron sənəd şəklində formalaşdırılması müvafiq tibb müəssisələri, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və işəgötürənlər arasında məlumat mübadiləsi üçün avtomatlaşdırılmış məlumat mübadiləsi sistemindən istifadə etməklə həyata keçiriləcək. Proses iştirakçıları arasında qarşılıqlı informasiya mübadiləsi qaydaları bütün iştirakçılar üçün eyni olacaq və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hüquqi sənəd formasında təsdiq ediləcək.

**Aprelin 7-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında akademik Zərifə xanım Əliyevanın anadan olmasının 100 illiyinə həsr olunmuş elmi-praktik konfrans keçirilib. "Oftalmologiyanın aktual problemləri"nə dair konfransı universitetin rektoru, professor Gəray Gəraybəyli açaraq bu ilin xalqımız, ölkəmiz üçün əlamətdar bir il olduğunu bildirib.**

# Yüksək insani keyfiyyətlərə malik görkəmli alim

## ATU-da akademik Zərifə Əliyevanın anadan olmasının 100 illiyinə həsr edilmiş elmi-praktik konfrans keçirilib





Ölkə başçısı İlham Əliyev tərəfindən 2023-cü ilin "Heydər Əliyev İli" elan olunduğunu xatırladan rektor, bu il həm də görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyinə həsr olunmuş çoxsaylı tədbirlərin keçirildiyini vurğulayıb: "Sevindirici haldır ki, universitetimizdə də silsilə tədbirlər davam edir və bu konfrans onlardan biridir. Zərifə xanım Əliyevanın tibb elmində, səhiyyədə qoyduğu iz çox dərindir. O, dahi şəxsiyyət Heydər Əliyevin ömür-gün yoldaşı olmaqla yanaşı, tibb sahəsində işləyənlər üçün də çox doğma bir insandır. Konfransın materiallarına baxarkən xatırlayıram ki, biz hər il 28 aprel ərəfəsində Zərifə xanım Əliyevaya həsr olunmuş tədbirlər keçirmişik. Bizim böyük əksəriyyətimiz Zərifə xanımla birbaşa tanış deyilik. Lakin onun haqqında danışılanlar, dərc olunan materiallar bizdə elə təsəvvür yaradır ki, neçə illər birlikdə işləmişik".

Professor G.Gəraybəyli qeyd edib ki, məşhur dövlət xadimi, səhiyyə təşkilatçısı Əziz Əliyevin ailəsində dünyaya göz açan, dünyagörüşü, yüksək mədəniyyəti belə bir ailədə formalaşan Zərifə xanımın həkimlik peşəsini seçməsi təbii idi: "Onun sonrakı elmi fəaliyyəti çox zəngin və əhatəli olub. İstedadlı alim kimi oftalmologiyanın aktual mövzularına həsr edilmiş çoxprofilli tədqiqatlar aparıb və dəyərli elmi-tədqiqat işləri yazıb. Müxtəlif göz xəstəliklərinin müalicə və profilaktika tədbirlərinin işlənib hazırlanması ilə məşğul olan Zərifə xanım özünün tədqiqat işlərini traxomanın müalicəsi ilə bağlı məsələlərə həsr edib. O, keçmiş SSRİ-nin oftalmologiya sahəsində ən mötəbər mükafatı olan SSRİ Tibb Elmləri Akademiyasının M.İ.Averbax adına mükafatına layiq görülüb. Keçmiş SSRİ-də bu mükafatı alan ilk qadın alim kimi onun adı oftalmologiya elminin tarixinə düşüb".

Akademikin elmi fəaliyyətinin oftalmologiya ilə məhdudlaşmadığını deyən rektor, görkəmli alimin yüksək insani xüsusiyyətləri ilə də yaddaşlara əbədi həkk olunduğunu bildirb. Eyni zamanda Zərifə xanım Əliyevanın yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etdiyini, tələbələrinin onun yolunu uğurla davam etdirdiyini diqqətə çatdıraraq konfransın işinə uğurlar arzulayıb.

Bundan sonra Z.Əliyevanın həyat və fəaliyyətinə həsr olunmuş film nümayiş etdirilib.

Konfransda çıxış edən Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev akademik Zərifə xanım Əliyevanın hər zaman sonsuz hörmət və məhəbbətlə xatırlandığını söyləyib: "O, gənc həkimlərin tərbiyəsinə, onların peşə fəaliyyəti ilə bağlı problemlərinin öyrənilməsinə və həllinə xeyli zəhmət sərf edib. Çoxsaylı məqalələri, çıxışları, kitabları, elmi monoqrafiyaları cəmiyyətdə həkimin şəxsiyyət kimi formalaşması prosesinə dəyərli töhfədir. Qürurla deyə bilərik ki, 1985-ci ilin 15 aprelindən ölümsüz həyatı başlanan akademik Zərifə xanım Əliyevanın ardıcılları onun ideyalarını daim yaşadır və uğurla davam etdirirlər. Onun işıqlı xatirəsi bu gün də insanların qəlbindədir".

Daha sonra professor Tamara Hüseynova, Oftalmologiya kafedrasının dosenti Solmaz Əliyeva, Milli Oftalmologiya Mərkəzinin əməkdaşı, professor Rasim Hacıyev çıxış edərək Zərifə xanım Əliyeva haqqında xatirələrini bölüşüblər.

Ailə üzvləri adından çıxış edən Z.Əliyevanın böyük bacısı Ləzifə xanımın nəvəsi, həkim-oftalmoloq Təranə Vəliyeva uşaqlıq illərindən iştirakçısı olduğu ailə məclislərindən danışıb: "Belə məclislərdə Zərifə xanım mütləq iştirak edirdi. Məni də uşaqkən nənəm həmin tədbirlərə və qonaqlıqlara aparardı. Demək olar ki, oftalmoloqlar arasında böyüdüm və oftalmoloq olmaq həvəsim də bu gözəl mühitdə yarandı. Zərifə xanım çox qonaqpərvər bir insan idi. Bizi tez-tez öz evinə dəvət edər, gözəl süfrə açardı. Köməkçiləri olmasına baxmayaraq, qonaqlarına özü xidmət etməyi sevərdi. Həmişə də hədiyyə ilə qayıdırdım. Zərifə xanım ətrafındakı insanları çox ruhlandırırdı. Bir ziyalı kimi həmişə diqqət mərkəzində idi. Onun səlis, gözəl nitqi hamını valeh edirdi".

Çıxışının sonunda Zərifə xanımın çox gözəl tale yaşadığını deyən T.Vəliyeva qeyd edib ki, o ilk növbədə görkəmli dövlət xadimi Əziz Əliyevin qızı, daha sonra Ümummilli Lider Heydər Əliyevin həyat yoldaşı və Azərbaycan xalqına İlham Əliyev kimi müzəffər lider bəxş edən ana idi.

Açılış tədbirindən sonra elmi məruzələrin təqdimatına başlanılıb. Oftalmologiya kafedrasının müdiri, professor Paşa Musayev, kafedranın dosentləri Tural Qəlbinur, Hafiz Qəhrəmanov, Vəfa Məmmədova və assistentlər V.Nəsirova, N.Sadıqovanın oftalmologiyanın aktual problemlərinə dair maraqlı məruzələri dinlənilib. Konfrans məruzələr ətrafında müzakirələrlə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# "Zərifə Əliyeva – 100" kitab sərgisinin açılışı olub

**ATU-nun Əsaslı Kitabxanasında görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyinə həsr olunan sərginin açılışı olub.**



Kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Ziyafət Eminova sərginin açılışında çıxış edərək ölkə başçısı cənab İlham Əliyevin 3 noyabr 2022-ci il tarixli Sərəncamına əsasən, akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyinin qeyd olunduğunu xatırladıb. Bildirib ki, Zərifə xanımın adı çəkiləndə gözlərimiz önündə onun işıqlı siması, əsl Azərbaycan qadınının obrazı canlanır. O, görkəmli alimin oftalmologiya sahəsində bir elmi məktəb yaratdığını, bu məktəbin yetirmələrinin Azərbaycanda oftalmologiya elminin inkişafına əhəmiyyətli töhfələr verdiyini diqqətə çatdırıb.

Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur da sərginin açılışında çıxış edib. "Hər bir xalqın taleyində elə böyük şəxsiyyətlər var ki, onlar həmin dövr və sonrakı bütün zamanlarda insanları işıqlı gələcəyə aparan bir bələdçi olur. Ona görə də belə şəxsiyyətlərin doğum günlər xalqın, dövlətin bayramıdır. Ulu Öndər Heydər Əliyev və onun həyat yoldaşı, silahdaşı Zərifə xanım Əliyeva məhz belə tarixi şəxsiyyətlərdəndir" – deyən professor, unudulmaz müəllimi haqqında kövrək xatirələrini bölüşüb.

O, akademik Z.Əliyevanın tədqiqatları nəticəsində traxoma xəstəliyinin müalicəsində yeni bir üsulun meydana gəldiyini, bu xəstəliyin ölkəmizdə yayılmasının qarşısının tamamilə alındığını söyləyib. Eyni zamanda Zərifə xanımın həmin dövr üçün yeni sahələr olan tibbi etika və deontologiyaya dair araşdırmalarının əhəmiyyətindən də danışaraq, bu tədqiqatların təkcə tibbdə deyil, bütövlükdə cəmiyyətdə böyük rəğbətlə qarşılandığını vurğulayıb. Qeyd edib ki, oftalmologiya sahəsini seçən tələbələr bu gün də onun elmi əsərlərindən, ideyalarından faydalanırlar. Ona görə də onları akademik Zərifə Əliyevanın mənəvi tələbələri hesab etmək olar. Gənc nəslin onun həyat və fəaliyyətini dərindən öyrənməsi baxımından bu cür kitab sərgilərinin əhəmiyyətindən danışan P.Qəlbinur, sərginin təşkilinə görə kitabxananın kollektivinə təşəkkürünü bildirib.

Kitabxananın əməkdaşları Xuraman Hacıyeva, Səriyyə Quliyeva, Əsgər Əsgərov və Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov da tədbirdə çıxış edərək, Azərbaycan xalqının yaddaşına əbədi həkk olunan nəcib insan, böyük alim Zərifə xanımı xüsusi ehtiramla xatırlayıblar.

Açılışdan sonra tədbir iştirakçıları sərgi ilə daha yaxından tanış olublar.

# Ümumdünya Səhiyyə Təşkilatı: 75 il sağlamlığın keşiyində

## “Hamı üçün sağlamlıq” kampaniyası çərçivəsində ATU-da tədbir təşkil olunub

**1948-ci ildə əsası qoyulan Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bu il 7 aprel – Ümumdünya Sağlamlıq Günündə yaradılmasının 75 illiyini böyük təntənə ilə qeyd edir. Bu tarixi günlə əlaqədar olaraq ÜST tərəfindən “Hamı üçün sağlamlıq” kampaniyası çərçivəsində il boyunca silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur.**

Bu münasibətilə Azərbaycan Tibb Universitetində Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan nümayəndəliyi və AMUN - Azərbaycan Tibb Universitetinin BMT Modeli Klubunun birgə təşkilatçılığı ilə tədbir keçirilib.

Açılış nitqi ilə çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli rəhbərlik etdiyi ali məktəbin hər zaman ÜST-ün layihələrində aktiv iştirak etdiyini, bu layihələrin həyata keçməsinə öz dəstəyini göstərdiyini vurğulayıb. Rektor G.Gəraybəyli COVID-19 pandemiyası zamanı ATU tələbələrinin ucqar rayonlarda yaşayan əhalinin vaksinasiyası prosesində çox yaxından iştirak etdiyini xatırladıb. Azərbaycan Respublikasının ÜST ilə əlaqələrinin çox yüksək səviyyədə olduğunu bildirən professor Gəray Gəraybəyli, bu əlaqələrin daha da gücləndirilməsi üçün həyata keçirilən hər növ fəaliyyətin ATU tərəfindən də dəstəkləndiyini qeyd edib.

Daha sonra AMUN klubunun sədri Günəş Əliyeva çıxış edərək ATU-nun Tələbə Gənclər Təşkilatı nəzdində fəaliyyət göstərən BMT Modeli Klubunun ÜST-ün Bakı ofisi ilə əlaqələrindən danışıb. O, qarşılıqlı fəaliyyət çərçivəsində ötən ilin sonunda Azərbaycanda ilk dəfə olaraq ÜST simulyasiya konfransının keçirildiyini vurğulayıb. G.Əliyeva ikitərəfli əməkdaşlığın daim ATU rəhbərliyi tərəfindən dəstəkləndiyini qeyd edib.





Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəsi və Ölkə Ofisinin rəhbəri dr. Hande Harmancı ATU tələbələri qarşısında “Ümumdünya Səhiyyə Təşkilatı: 75 il sağlamlığın keşiyində” mövzusunda mühazirə ilə çıxış edib. 200-dən çox tələbənin iştirak etdiyi görüşdə iştirakçılara ÜST-ün missiyası, strukturu, hazırda gördüyü işlər, dünyada və Azərbaycandakı nailiyyətləri və əməkdaşlıq imkanları ilə bağlı məlumat verilib.




Sıx əməkdaşlıq və göstərdiyi davamlı dəstəyə görə dr. Hande Harmancı professor Gəray Gəraybəyli tərəfindən “Təşəkkürnamə” ilə təltif olunub. Yekunda tələbələrin fikirləri dinlənilib və sualları cavablandırılıb.

Qeyd edək ki, ÜST-ün konstitusiyası tarixdə sağlamlığı insan hüququ kimi rəsmi şəkildə tanıyan ilk sənəddir. O vaxtdan bəri bu ideyanın həyata keçirilməsi istiqamətində əhəmiyyətli irəliləyişlər əldə edilib. Qlobal miqyasda gözlənilən ömür uzunluğu ən yoxsul ölkələrdə belə 46 yaşdan 73 yaşa qədər artıb. Çiçək xəstəliyinin kökü kəsilib, poliomielit xəstəliyi isə artıq tamamilə aradan qaldırılmaq üzrədir. Bütün bu nailiyyətlər Təşkilatın 75 illik mövcudluğu ərzində gördüyü işlərdən yalnız iki mühüm məqamdır. Bununla yanaşı, 42 ölkədə malyariya aradan qaldırılıb, İİV və vərəm epidemiyaları dayandırılıb, 47 ölkədə ən azı bir tropik xəstəliyə son qoyulub.

Son beş ildə Ebola və malyariya üçün ilk vaksinlər hazırlanıb və lisenziyalaşdırılıb. Yaxın 3 il ərzində ÜST bu əsrin ən ağır sağlamlıq böhranı olan COVID-19 pandemiyasına qarşı qlobal cavab tədbirlərini koordinasiya edib.

Azərbaycanda da səhiyyə sahəsində bir çox uğurlar qazanılıb Belə ki, 2002-ci ildə poliomielitdən, 2023-cü ildə malyariyadan azad ölkə statusu verilib. Həbsxanalarda vərəmin profilaktikası və nəzarəti üzrə dünyada növünə görə yeganə olan ÜST-lə Əməkdaşlıq Mərkəzi yaradılıb.

Bugünkü çıxışında bütün bu məsələlərə toxunan dr. Harmancı qazanılan hər bir uğurun əldə edilməsində məqsədyönlü birgə fəaliyyətin rolu olduğunu diqqətə çatdırıb: “Biz bu nailiyyətləri yerli tərəfdaşlarımızla birlikdə əldə etdik və bu fəaliyyətlərdə aparıcı rol oynamaqdan qürur duyuruq. Ümid edirəm ki, bundan sonra da əlaqələrimiz güclənəcək və universal tibbi təminata nail olacağıq”.

**Son iki yüz ildə Azərbaycan tarixinə bir çox şanlı səhifələrlə yanaşı, faciələr və soyqırımları, müsibətlərlə dolu səhifələr də yazılıb. Bu dəhşətli hadisələrdən biri 1918-ci ilin mart-aprel aylarında yaşanmışdı. Sonradan sovet hakimiyyəti dövründə, təxminən 70 il ərzində xalqın qan yaddaşını silməyə aramsız cəhdlər göstərilsə də, bu, mümkün olmadı və nəhayət, həqiqət anı yetişdi.**

# Güclü Azərbaycan dövləti bütün təhdidlərə cavab vermək iqtidarındadır

## 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı ATU-da tədbir keçirilib

Martın 31-də Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı Azərbaycan Tibb Universitetində Nəsimi Rayon İcra Hakimiyyəti ilə birgə tədbir keçirilib. Tədbirdə şəhid ailələri, qazilər, rayon ictimaiyyətinin nümayəndələri, rayon ağsaqqalları, İctimai Şuranın üzvləri və tələbələr iştirak edib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Tibb Universitetinin Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov bildirib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini ortaya qoymaq imkanı yarandı. İndi uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər bir-bir açılır: “Ulu öndər Heydər Əliyevin “Azərbaycanlıların soyqırımı haqqında” 1998-ci il 26 mart tarixli Fərmanı ilə soyqırımı aktlarına siyasi-hüquqi qiymət verilməsi bu sahədə aparılan tədqiqatlara, həqiqətin üzə çıxarılması istiqamətində səylərin artırılmasına təkan verdi. Azərbaycan xalqına qarşı törədilmiş bütün soyqırımı faciələrini qeyd etmək məqsədilə martın 31-i Azərbaycanlıların Soyqırımı Günü elan edildi”.

Nəsimi Rayon İH başçısının birinci müavini Gülarə Verdiyeva qeyd edib ki, azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsrin ən faciəli və dəhşətli səhifələrindəndir:

“Ermənilərin azərbaycanlılara qarşı soyqırımları XX əsrin sonlarında bir daha təkrarlandı. 1992-ci ilin fevralında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməyən divan tutdu. Bu qanlı faciə yüzlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə nəticələndi. Millətçi-separatçı ermənilərin Dağlıq Qarabağda başladığı avantürist hərəkətin nəticəsi olaraq bir milyondan artıq soydaşımız öz doğma yurd-yuvalarından didərgin salındı. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olub. Ulu öndər Heydər Əliyev həmin tarixi Fərmanında ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələləri diqqətə çatdırılır. Qeyd olunur ki, Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir.

Tarixin səhifələri vərəqləndikcə yeni-yeni faktlar, erməni vəhşiliyinin tükürpədən səhnələri üzə çıxır. Son vaxtlar məlumatların dəqiqləşdirilməsi istiqamətində axtarışlar genişləndirilir. Təkzibolunmaz arxiv sənədləri, soyqırımlarını təsdiqləyən çoxsaylı dəlil-sübutlar aşkarlanır.

Müasir gənclik güclü dövlət naminə obyektiv tariximizə etinasızlıq göstərməməli, tariximizi dəqiq öyrənməli və qonşularımızın kimlər olduğunu heç vaxt yaddan çıxarmamalıdır. Bu qiymətli tarixi sənədlər erməni xəyanətini, onların insanlığa, bəşəri dəyərlərə qarşı çevrilmiş eybəcərliklərini bütün dünya qarşısında ifşa etməyə imkan yaradıb. Beləliklə, azərbaycanlı müsəlmanlara qarşı genosidin tarixi mərhələlərini təhlil edərkən XX əsrdə Azərbaycan xalqının məruz qaldığı soyqırımı siyasətini bizə yaşadığımız acı tarixdən ibrət alaraq hadisələrə tarixi, siyasi və hüquqi qiymət verilməsi üçün mübarizə aparmaq və gələcəyi bu gündən düşünməyə vadar etməkdədir”.



Sonra çıxış edən ATU-nun professoru, Nəsimi rayon Ağsaqqallar Şurasının sədri Vaqif Şadlinski bildirib ki, əzəli Azərbaycan torpaqlarında məskunlaşaraq burada özlərinə dövlət quran ermənilər tarixboyu xalqımıza qarşı xəyanətlərə əl atıblar. Onlar uydurduqları “böyük Ermənistan” mifinin əsirinə çevrilib və bu mifi reallaşdırmaq üçün ən çirkin vasitələrə əl atmaqdan belə çəkinməyiblər. Bir etnos olaraq tarixlərini saxtakarlıqla yazan, maddi və mədəniyyət abidələrimizi, mətbəximizi mənimsəyib öz adlarına çıxmağa çalışan ermənilər, eyni zamanda zaman-zaman azərbaycanlılara qarşı misli görünməyən vəhşiliklər, qətliamlar, vandalizm əməlləri, soyqırımları törədiblər. Təkcə XX əsrdə xalqımız dörd dəfə - 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə ermənilər tərəfindən soyqırımı və etnik təmizləmələrə məruz qalıb. 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunları və daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirib, 10 minlərlə insanı öz torpaqlarından qovub. Erməni cəlladları uşaq, qoca, qadın demədən dinc əhalini kütləvi surətdə qətlə yetirib, on minlərlə azərbaycanlı ilə yanaşı, minlərlə ləzgi, yəhudi, rus, avar və talış milliyyətinə mənsub insanları qılıncdan, süngüdən keçirərək diri-diri yandırıb, memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və mədəni abidələri dağıdıblar. Üç gün davam edən qırğında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda “Daşnaksutyun” partiyasının 4 minlik silahlı dəstəsi iştirak edib.

Azərbaycan Tibb Universitetinin İctimai fənlər kafedrasının müdiri, professor Qoşqar Əliyev çıxışında bildirib ki, “Böyük Ermənistan” yaratmaq xülyasında olan ermənilər 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçiriblər. 1918-ci ilin mart ayında əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub.

Sonra Yeni Azərbaycan Partiyasının Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov çıxış edərək deyib ki, tarixi proseslərin gedişi Ermənistan dövlətinin və erməni lobbisinin təcavüzkar siyasətinin iflasa məhkum olduğunu sübut etməkdədir: “Böyük Ermənistan” xülyası gerçəkləşməyib. Artıq həm hərb, həm də siyasi arenada uzaqgörən liderimiz, mübariz xalqımız, rəşadətli ordumuz ermənilərə layiq olduğu cavabı verib. Güclü Azərbaycan dövləti indən sonra da tarixi torpaqlarına göz dikən, xalqımıza qarşı yönələn bütün təhdidlərə cavabını verəcək”.

Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri ictimai birliyinin Nəsimi rayon şöbəsinin sədri Azər Quliyev ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərin canlı şahidi olduğunu qeyd edərək, Ali Baş Komandanın uğurlu siyasəti nəticəsində Vətən müharibəsində qazanılan möhtəşəm qələbəmizin bir daha Azərbaycanın dəmir yumruğunun qarşısında heç bir gücün, silah-sursatın dayana bilməyəcəyini hər kəsə göstərdiyini vurğulayıb.

Tədbirin sonunda gənclərin maraqlandıran suallar cavablandırılıb.

**Aprelin 3-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında I Müalicə-profilaktika fakültəsi Tələbə Elmi Cəmiyyətinin (TEC) akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyinə həsr olunmuş konfransının açılışı olub. Konfransı giriş sözü ilə universitetin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev açıb.**

Akademik Zərifə Əliyeva - 100

# Alimliyə aparan yol tələbəlikdən başlayır

## I Müalicə-profilaktika fakültəsi Tələbə Elmi Cəmiyyətinin konfransı keçirilib





Giriş nitqində Azərbaycan Tibb Universitetində tələbə elmi cəmiyyətlərinin fəaliyyətinə xüsusi diqqət yetirildiyini vurğulayan prorektor, tələbələrin elmi işə cəlb edilməsinin vacib məsələlərdən biri olduğunu bildirib: "Demək olar ki, universitetimizin yaranma tarixindən bu günə qədər TEC-in yüksək səviyyəli konfransları davam edir. İldən-ilə tələbələrin, kafedraların, o cümlədən müəllimlərin bu məsələyə münasibəti müsbət mənada dəyişir. Ümumiyyətlə, tələbələrin gələcək elmi fəaliyyətinin başlanğıcı Tələbə Elmi Cəmiyyətində formalaşır. Ən böyük alimlərimiz əksər hallarda tələbəlik illərindən bu prosesə qoşularaq elmi nailiyyətlər qazanırlar".

Bir neçə il əvvəl Bakı Dövlət Universitetində 600-dən çox bal toplayan tələbələrin mütləq elmi işə cəlb edildiyini xatırladan prorektor, respublikamızda 600-dən yuxarı bal toplayan tələbələrin böyük əksəriyyətinin – ildə təxminən 350-450 nəfərin bizim universiteti seçdiyini söyləyib. O, tələbələrin bu konfranslarda iştirakının onların formalaşmasında ciddi əhəmiyyət kəsb etdiyinə diqqət çəkərək, eyni zamanda elmi tədqiqata həvəs göstərən tələbələrlə işin düzgün qurulmasında ATU-nun Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov və fakültənin dekanı, dosent Elşad Novruzovun rolunu da yüksək qiymətləndirib.

S.Əliyev görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya gələn akademik Zərifə Əliyevanın, bütövlükdə bu ailənin Azərbaycan dövlətçiliyi və Azərbaycan səhiyyəsindəki misilsiz xidmətlərindən də danışıb. Belə bir tarixi şəxsiyyətin xatirəsinə həsr olunmuş tədbirin yüksək səviyyədə keçəcəyinə əminliyini ifadə edərək, konfransın işinə uğurlar arzulayıb.

Bundan sonra akademikin həyat və fəaliyyəti barədə videoçarx nümayiş olunub.

Daha sonra ATU Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri Müşfiq Həsənov konfransda çıxış edərək, TEC-də əsas fəaliyyətin tədris tədqiqat və elmi tədqiqat işləri istiqamətində aparıldığını diqqətə çatdırıb: "Əvvəlki illərdən fərqli olaraq tələbələrin daha erkən Tələbə Elmi Cəmiyyətinə cəlb edilməsinə şərait yaratdıq. Artıq universitetimizə qəbul olunan I və II kurs tələbələrini TEC-ə gətirməyə nail olmuşuq. Bunun bariz nümunəsidir ki, onlar Tələbə Elmi Cəmiyyətinin konfranslarında elmi məruzələrlə çıxış edirlər. Elmi tədqiqat işləri III kursdan sonra klinik kafedralarda tədrislə məşğul olan tələbələrimizə verilir və onlar klinikalarımızda həm klinik materiallar, həm laborator xidmətlərdən istifadə etməklə elmi tədqiqat işləri hazırlayırlar".

O, tədbirin təşkilində I Müalicə-profilaktika fakültəsinin dekanlığının əzmlə çalışdığını, gözəl bir proqram ərsəyə gətirdiyini bildirərək, görkəmli alim, akademik Zərifə xanım Əliyevanın yubileyinə həsr edilmiş konfransda oftalmologiya, ümumiyyətlə tibb elmində olan yeniliklərin müzakirə ediləcəyini, alınan nəticələrin nəinki tələbələrimiz, elə müəllimlərimiz üçün də faydalı olacağını vurğulayıb.

Yubiley konfransında ATU-nun Oftalmologiya kafedrasının müdiri, professor Paşa Qəlbinur da akademik Zərifə xanım Əliyevanın zəngin və mənalı ömür yolundan danışıb. Bildirib ki, Azərbaycan tarixinin ən böyük 4-5 qadın şəxsiyyətlərindən biri olan Zərifə xanımı yaxından görmək, müşahidə etmək imkanı olub: "Zərifə xanım Əliyeva qədirbilən övlad, məşhur alim, istedadlı insan, dahi bir şəxsiyyətin ömür-gün yoldaşı və qayğıkeş ana idi. Onun böyük Vətən sevgisi vardı. Bu cür şəxsiyyətlər ölümsüzdür. Zərifə xanımın 1985-ci ilin 15 aprelindən ölümsüz həyatı başlanır. O, Azərbaycan xalqı, Azərbaycan oftalmologiyası durduqca, yaşayacaq".

Açılış tədbirinin sonunda fakültənin dekanı, dosent Elşad Novruzov konfransın gedişatı ilə bağlı bəzi məlumatları diqqətə çatdırıb. Qeyd edib ki, obyektivliyi qoruyub saxlamaq üçün münsiflər heyətinin adları açıqlanmayıb. Hətta məruzəçilər də münsiflər heyətinin üzvlərini tanımırlar. Proqramda elmi rəhbərlərin adları da qeyd olunmayıb. Həmçinin Tələbə Elmi Cəmiyyətinin konfransının tezislər toplusu ilk dəfə olaraq beynəlxalq ISBN kodu ilə nəşr edilib.

Fakültənin dekanı konfransın yüksək səviyyədə təşkilinə görə rektor, professor Gəray Gəraybəyliyə, Tədris Cərrahiyyə Klinikasının rəhbərliyinə və texniki heyətə təşəkkürünü bildirərək, tələbələrin akademikin adına layiq məruzələrlə çıxış edəcəklərinə inandığını deyib.

Qısa fasilədən sonra konfrans öz işini panellər üzrə davam etdirib. Əvvəlcə tələbə tədqiqatçıların cərrahi panel üzrə məruzələri dinlənilib və müzakirələr aparılıb.

Xatırladaq ki, 3 gün davam edən konfransda aprelin 4-də terapevtik panel, aprelin 5-də isə təməl elmləri paneli üzrə məruzələrin təqdimatı və müzakirəsi olub.

---

**Aprelin 4-də ATU-nun Tədris Stomatoloji Klinikasında Stomatologiya fakültəsi Tələbə Elmi Cəmiyyətinin (TEC) akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyinə həsr olunmuş konfransının açılışı olub. Konfransı giriş sözü ilə fakültənin dekanı, dosent Səid Əhmədov açıb.**



# TEC-in konfransında tələbələrin məruzələri dəyərləndirilib

Dekan görkəmli akademikin keçdiyi şərəfli həyat yolundan, elmi fəaliyyətindən söhbət açıb. Ümumiyyətlə, görkəmli dövlət xadimi Əziz Əliyevlər ailəsinin Azərbaycan dövlətçiliyinin və Azərbaycan tibb sahəsinin inkişafında göstərdikləri misilsiz xidmətlərdən danışıb. Bu cür konfransların tələbələrin elmi biliklərinin, gələcəkdə aparacaqları araşdırmaların səmərəliliyinin artırılmasında müstəsna rolu olduğu vurğulanıb.

Konfrans açıq elan edildikdən sonra tələbələrin elmi məruzələri dinlənilib.

Sonda Münsiflər Heyəti tərəfindən məruzələr dəyərlədirilib. Ortopedik stomatologiya kafedrası üzrə Mənsurə Omarova (III kurs), və Elnur Məmmədovun (IV kurs) məruzələri 1, Terapevtik stomatologiya kafedrası üzrə Nəzrin Musəvi (IV kurs), Ağız və üz-çənə cərrahiyyəsi kafedrası üzrə Yasəmən Nurinin (IV kurs) məruzələri 2, Uşaq stomatologiyası kafedrası üzrə Elman Şərifi (IV kurs), Ağız və üz-çənə cərrahiyyəsi kafedrası üzrə Shervin Goishexanın (III kurs) məruzələri 3-cü yerə layiq görülüb.

# Hər bir ölkənin inkişafı elmin inkişafından asılıdır

## Əczaçılıq üzrə TEC-in tədbirinə 71 tələbə 46 elmi iş təqdim edib

**Əczaçılıq fakültəsi Tələbə Elmi Cəmiyyətinin akademik Zərifə Əliyevanın 100 illiyinə həsr olunmuş konfransı keçirilib. Konfransın əvvəlində görkəmli alim, oftalmoloq, akademik Zərifə Əliyevanın xatirəsi bir dəqiqəlik sükutla anılıb.**

Açılış nitqi ilə çıxış edən Əczaçılıq fakültəsi üzrə TEC-in rəhbəri, dosent Nərgiz Məmmədova Azərbaycan oftalmologiyasını dünya səviyyəsində tanıdan akademik Zərifə Əliyevanın təbabətdə öz dəst-xətti ilə tanınması ilə yanaşı, həm də əsl vətəndaş, xeyirxah insan olduğunu qeyd edib. Bu baxımdan TEC konfransının ikiqat böyük əhəmiyyət kəsb etdiyini bildirən N.Məmmədova qaliblərin seçim proseduru haqqında da məlumat verib.

Sonra tələbələrin TEC konfransına hazırlıq prosesini əks etdirən videoçarx nümayiş etdirilib.

ATU-nun Elmi işləri üzrə prorektoru, professor Rauf Bəylərov TEC konfranslarının tələbələrin gələcək fəaliyyəti üçün böyük əhəmiyyət daşıdığını vurğulayaraq, tədbirin görkəmli alim Zərifə Əliyevanın 100 illiyinə həsr edilməsinin təsadüfi olmadığını vurğulayıb: "Tanınmış oftalmoloq Zərifə xanım Əliyeva ölkəmizdə elmi kadrların formalaşması istiqamətində böyük işlər görüb, elmin özünə çox yeniliklər gətirib. Hər bir ölkənin inkişafı elmin inkişafından asılıdır. Sevindirici haldır ki, Tibb Universitetinin tələbələri arasında elmə olan maraq getdikcə artmaqdadır. Bu tip tədbirlərimiz məhz həmin marağın gücləndirilməsi, gənclərin inkişafı baxımından olduqca faydalıdır".

Milli Oftalmologiya Mərkəzinin Elmi təşkilati, tədris və metodik bölməsinin müdiri, t.ü.f.d. Yazgül Abdıyeva akademik Z.Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafındakı müstəsna xidmətlərindən danışıb. Qeyd edib ki, Zərifə xanım Azərbaycanda geniş yayılmış traxomanın müalicəsi, peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsi, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifi olub. O cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi olub. Z.Əliyevanın yüksək ixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etdiyini deyən Y.Abdıyeva, həmçinin Milli Oftalmologiya Mərkəzinin fəaliyyəti haqqında da məlumat verib.






ATU-nun Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli Zərifə Əliyevanın yaxşı həkim olmaqla yanaşı, həm də yaxşı insan kimi yaddaşlarda qaldığını qeyd edib: "Zərifə xanım həyatda iz qoyub getməyi bacaran insanlardandır. Dünya şöhrətli şəxsiyyətə ziyalı yoldaşı olmaq onun aliliyini göstərir. Zərifə xanım layiqli bir övlad, sədaqətli ömür-gün yoldaşı və qayğıkeş ana idi. TEC konfransının bu cür şəxsiyyətin 100 illiyinə həsr edilməsi bizlər üçün böyük bayramdır. Məhz bu baxımdan fakültəmizdə həm dəyərli professor-müəllim heyəti, həm də yüksək potensiala malik tələbələrimiz tərəfindən bu tədbirə böyük həvəslə hazırlıq gedirdi. Bu elm cəbhəsinin əsgərləri kimi konfrans iştirakçılarının hər birinə uğurlar arzu edirəm".

ATU TEC-in rəhbəri, dosent Müşfiq Həsənov da böyük alim Zərifə Əliyevanın 100 illiyinə həsr olunduğu üçün bu tədbirin böyük əhəmiyyət daşıdığını bildirib. Məşhur alim, tanınmış həkim Zərifə Əliyevanın apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, fundamental əsərləri Azərbaycanda təkcə oftalmologiya yox, ümumiyyətlə tibb elminin parlaq səhifələrini təşkil edir. Onun elmi-pedaqoji və ictimai fəaliyyəti Azərbaycanda oftalmologiya elminin inkişafına güclü təsir göstərib. TEC rəhbəri M.Həsənov tədbir iştirakçılarına gələcək işlərində uğurlar arzulayıb.

Qeyd edək ki, Əczaçılıq üzrə TEC-in konfransına 71 tələbə 46 elmi iş təqdim edib. "AzerMed" QSC şirkətinin dəstəyi ilə baş tutan konfransın sonunda 15 elmi işin müəllifləri mükafatlandırılıb. "Ən yaxşı poster", "Ən yaxşı eksperimental iş", "Ən yaxşı referativ iş" kimi nominasiyalar üzrə qalib olan tələbələrə diplom və xüsusi hədiyyə ilə yanaşı, pul mükafatı da təqdim edilib.

Tədbir iştirakçılarından 6 nəfər isə ATU-da keçiriləcək Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq tədbirdə çıxış etmək hüququ qazanıb.

# ATU-da tədqiqatçı tələbələr üçün geniş imkanlar var

## Professor Sabir Əliyev: Tələbə öyrəndiklərini elmi cəhətdən əsaslandırmağı bacarmalıdır

**Universitetimizdə tələbə elmi cəmiyyətlərinin ənənəvi konfransları çərçivəsində II Müalicə-profilaktika fakültəsi TEC-in tədbiri keçirilib. Konfransı universitetin Tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev açaraq son illərdə həm tələbələrin elmi işlərə xüsusi maraq göstərdiyini, həm də müəllimlərin tələbə tədqiqatlarına daha ciddi yanaşdığını vurğulayıb.**

Onun sözlərinə görə, tələbələrin tədqiqat işlərinə cəlb olunması universitet həyatının ən önəmli məsələlərindən biridir. Çünki tələbə öyrəndiklərini elmi cəhətdən əsaslandırmağı bacarmasa, ondan yüksək səviyyəli həkim ola bilməz. O, bütün bunları nəzərə alaraq ilk növbədə tədqiqatçı tələbələrin elmi araşdırmalar aparması üçün əlverişli şərait yaradan rektor, professor Gəray Gəraybəyliyə minnətdarlığını bildirib. Qeyd edib ki, bizim güclü bazamız var və tələbələrimizin hazırlığı yüksək səviyyədədir.

S.Əliyev proqrama istər təməl, istərsə də kliniki fənlərə dair aktual mövzuların salındığını, burada məruzələrlə çıxış edən tələbələrin hamısını indidən qalib hesab etdiyini söyləyərək, konfransın işinə uğurlar arzulayıb.

Elmi işlər üzrə prorektor, professor Rauf Bəylərov da konfransın açılışında çıxış edərək bildirib ki, artıq 5 ildir Prezidentin imzaladığı müvafiq sərəncama əsasən, mart ayının 27-dən başlayaraq bir həftə ərzində Azərbaycanda elm günü qeyd olunur. Məhz bu ərəfədə Ulu Öndərimiz Heydər Əliyevin və görkəmli oftalmoloq, akademik Zərifə xanım Əliyevanin yubileylərinə həsr olunmuş konfranslar xüsusilə fərqlənir. Prorektor onu da deyib ki, universitetimiz reytinqinə görə Azərbaycanın 36 ali məktəbi arasında ilk yerlərdən birini tutur. Həmçinin ölkəmizdə yeganə universitetdir ki, 3000-ə yaxın xarici tələbə təhsil alır.

Universitet Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov rəhbərlik etdiyi qurumun üzərinə çox mühüm vəzifələr düşdüyünü deyib: "Tələbə Elmi Cəmiyyətinin əsas vəzifələrindən biri xüsusi bacarığa, istedada malik olan tələbələri tədqiqat işlərinə cəlb edərək üzə çıxarmaqdır. Sevindirici haldır ki, əvvəlki illərdən fərqli olaraq tədqiqatçı tələbələrin sayı kifayət qədər çoxalıb. Əgər keçən il 40 tələbə fakültə konfransında iştirak edirdisə, bu il iştirakçıların sayı 80-100 arasındadır. Burada qalib gələn tələbələrin əksəriyyəti öz elmi məqalələrini beynəlxalq konfranslara göndərirlər".

TEC-in elmi rəhbəri son 3 ildə tələbələrimizin 3 beynəlxalq konqresdə iştirakını universitet rəhbərliyinin xüsusi qayğısı kimi dəyərləndirib və ən yaxşı tədqiqat işi aparan tələbələrin bu etimadı doğruldacağına inandığını söyləyib.

Fakültənin dekanı, konfransın sədri, dosent İsrail Məhərrəmbəyli çıxışında indiki tələbələrin tədqiqat aparmaq imkanlarının



böyük olduğunu deyib. Bildirib ki, yaxşı həkim olmaq üçün nəzəri biliklə yanaşı, araşdırmaq, proqnozlaşdırmaq və statistik təhlil aparmaq bacarıqlarına da yiyələnmək lazımdır. Tədqiqatçı tələbələrin bu imkanlardan yetərincə bəhrələndiyini, beynəlxalq konqreslərə qatıldıqlarını söyləyən dekan, sonda təşkilati işlərə xüsusi dəstək verdiyinə görə universitet rəhbərliyinə təşəkkürünü bildirib və aktual mövzulara dair hazırlanan çıxışların maraqla qarşılanacağına əminliyini ifadə edib.

Bundan sonra II MPF-nin Tələbə Elmi Cəmiyyətinin elmi rəhbəri, dosent Aqil Əliyev konfransın tərkibi, gedişi barədə məlumat verib. TEC-də qəbul olunan tezislərin yaxın gələcəkdə jurnal şəklində dərc olunacağını və hər kafedraya paylanacağını söyləyib.

Universitet Tələbə Elmi Cəmiyyətinin sədri Eyyub Miriyev konfransın 4 hissədən ibarət olduğunu, 4-cü hissədə ancaq xarici tələbələrin çıxış edəcəyini və diskussiyaların ingilis dilində aparılacağını diqqətə çatdırıb.

# Hərbi həkim kursantların elmi tədqiqatlara marağı alqışlanır

**Aprelin 7-də ATU-nun Hərbi tibb fakültəsi Tələbə Elmi Cəmiyyətinin növbəti V konfransı keçirilib. Fakültə rəisinin tədris işləri üzrə müavini, tədris şöbəsinin rəisi, tibb xidməti polkovniki Məharət Rzayev toplantı iştirakçılarını salamlayaraq bildirib ki, konfrans xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illiyinə həsr olunub.**



Tədbirdə çıxış edən ATU TEC-in elmi rəhbəri, tibb elmləri doktoru Müşfiq Həsənov tələbələrə təcrübi biliklərin aşılanmasında, onların elmi-tədqiqat işinə maraqlarının artırılmasında və gələcəyin mütəxəssisi kimi yetişdirilməsində TEC-in böyük əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Tələbə Elmi Cəmiyyətinin fəaliyyəti müasir dövrün tələblərinə uyğun həyata keçirilir və burada iki istiqamət üzrə - tədris-tədqiqat və elmi-tədqiqat işləri aparılır.

Konfransda tələbə tədqiqatçılara uğurlar diləyən Müdafiə Nazirliyinin baş cərrahı, tibb xidməti polkovniki Çingiz Quliyev və Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqatlar İnstitutunun Fundamental şöbəsinin rəisi, birinci dərəcəli kapitan, fəlsəfə doktoru Əsəd Rüstəmov elmin yollarında ilk addımlarını atan tələbələrin bu həvəslərini alqışlayıblar. Onlar tələbələrin bundan sonra da TEC vasitəsilə elmi axtarışlarını davam etdirmələrini və elmə dərindən yiyələnmək üçün öz üzərlərində çalışmalarını tövsiyə ediblər.

Bundan sonra söz tədqiqatçı tələbə və kursantlara verilib. VI kursun kursantları Murad Osmanov "Ətrafların magistral arteriyalarının odlu silah yaralanmaları zamanı təxliyə mərhələsində yardım və müasir müalicə prinsipləri" (Elmi rəhbərlər: t.ü.f.d. İlqar Ömərov və t/x mayoru Bəxtiyar Əliyev), Coşqun Adilov "Ürəyin işemik xəstəliyi" (Elmi rəhbər: t.ü.f.d. Rəna Şirvanova), Seymur Hüseynzadə və Rauf Həsənzadə "Döş qəfəsinin odlu silah yaralanmaları zamanı birinci səviyyəli tibbi yardım" (Elmi rəhbər: t/x polkovnik-leytenantı Ramin Əliyev), IV kurs tələbəsi İlahə Rəcizadə "Hərbi qulluqçular arasında rast gəlinən həzm sistemi patologiyaları" (Elmi rəhbərlər: t/x kapitanı Aidə Məmmədova və t/x mayoru Bəxtiyar Əliyev), V kurs tələbəsi Nərgiz İsmayılova "Görmə üzvünün odlu silah yaralanmaları zamanı birinci səviyyəli tibbi yardım" (Elmi rəhbər: t.ü.f.d. Sevinc Orucova) mövzularında çıxış ediblər.

Konfransda ümumilikdə 18 kursant və tələbənin müxtəlif mövzularda apardıqları elmi araşdırmalara diqqət yetirilib və tədbir münsiflər heyəti tərəfindən geniş müzakirələrə əsaslanan sual-cavabla başa çatıb.

Sonda konfransda iştirak edən tədqiqatçı tələbə və kursantlara, eləcə də onların elmi rəhbərlərinə sertifikatlar təqdim olunub.

# 21 tələbənin alman və ingilis dillərində məruzələri dinlənilib

**Aprelin 5-də Azərbaycan Tibb Universiteti Tələbə Elmi Cəmiyyətinin (TEC) Xarici dillər kafedrası üzrə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfransı keçirilib. Konfransı TEC-in sədri Sura Pənahlı açıb.**



S.Pənahlı Ulu Öndərin keçdiyi şərəfli ömür yolu, onun Azərbaycan dövlətçiliyinin qorunması və inkişafında göstərdiyi misilsiz xidmətlər barədə konfrans iştirakçılarına ətraflı məlumat verib.

Konfrans zamanı 21 tələbənin alman və ingilis dillərində məruzələri dinlənilib. Onlardan Fariz Əliyev, Fidan Abdulhəlimova, Zəhra Manaflı, Nəzrin Məmmədova, Zəkiyyə Zeynalova, Kəlbi Kəlbiyev, Mehin Rəşdiyeva, Ağasəf Cəfərov, Ahmed İsmayil, İsmet Tuğ diploma layiq görülüb, digər məruzəçilərə isə sertifikatlar təqdim olunub.

Konfrans sual-cavab əsnasında öz işini başa çatdırıb.

**Aprelin 7-də Ümumdünya Sağlamlıq Günü qeyd olundu. Bu il həm də həyatımıza və sağlamlığımıza birbaşa təsir edən problemləri daim gündəmə gətirən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) 75-ci ildönümüdür.**

# 7 aprel Ümumdünya Sağlamlıq Günü idi

## Professor İbrahim İsayev: Əhalinin müasir ilkin tibbi xidmətlə təmin olunması prioritetdir



"Ümumdünya Sağlamlıq Gününün qeyd olunması ilk növbədə ictimaiyyətin diqqətini səhiyyənin problemlərinə yönəldir, hər şəxsin sağlamlığının qorunması və əmin-amanlığının təmin edilməsinə xidmət edir" – deyə, ATU-nun Ailə təbabəti kafedrasının müdiri, əməkdar elm xadimi, professor İbrahim İsayev bildirib. Bu günün hər il qlobal miqyasda vacib əhəmiyyət kəsb edən bir mövzuya həsr edildiyini, bu il isə "Hamı üçün sağlamlıq" şüarı altında keçirildiyini vurğulayıb.

İ.İsayev qeyd edib ki, əhalinin erkən ölüm və əlilliyinin səbəbləri aradan qaldırıla bilər və bu, qismən tibbi xidmətin əlçatanlığının və keyfiyyətinin artması ilə bağlıdır: "İlkin səhiyyə xidmətinin əhatə dairəsinin genişləndirilməsi, xəstəliklərin erkən aşkarlanması və düzgün müalicəsinin aparılması ÜST-ün 2030-cu ilə qədər qarşısında duran ən vacib məsələlərdən biridir. Bu problemin həllində dövlət orqanlarına kömək edilməsi, ailə həkimlərinin peşəkarlığının artırılması, düzgün qidalanma, idmanın və düzgün həyat tərzinin, gənclər arasında sağlam vərdişlərin təbliği, yaşlılara və sağlamlıq imkanları məhdud olanlara güzəştli şəraitin yaradılması, siqaret, alkoqollu içkilər və narkotik vasitələrin zərəri barədə məlumatlandırma, profilaktik prosedurların təyini və digər ilkin tibbi-sosial yardımın göstərilməsi önəmlidir".

Ailə həkiminin nəinki sağlamlıq problemləri olan, eyni zamanda konkret şikayəti olmayan, sağlam hesab edilən əhaliyə də tibb xidməti göstərdiyini deyən professorun sözlərinə görə, əsas məqsəd xəstəlikləri və onlara səbəb olan risk amillərini erkən mərhələdə aşkarlamaqdır. Yəni ailə həkimi patologiyanın xronikləşməsinin, daha ağır mərhələyə keçməsinin qarşısını alır, insanın həyat potensialının yüksəlməsinə və ömrünün uzanmasına yönələn profilaktik proqramları tərtib edir.

Azərbaycanda milli sosial yönümlü dövlət siyasətinin prioritetləri arasında səhiyyə sahəsinin də mühüm yer tutduğunu söyləyən İ.İsayev diqqətə çatdırıb ki, bu gün ölkə rəhbərliyinin müəyyən etdiyi uzunmüddətli inkişaf strategiyasının istiqamətlərindən biri də əhalinin beynəlxalq standartlara cavab verən ilkin tibbi xidmətlə təmin olunması və bununla əlaqədar genişmiqyaslı islahatların həyata keçirilməsidir: "Bu baxımdan respublikamızda da bütün dünya səhiyyə sistemində özünü doğrultmuş ailə həkimliyi institutunun yaradılmasına üstünlük verilir. Son illərdə universitetimizdə ailə həkimlərinin hazırlanması prosesinə, tədrisdə əsaslı islahatların həyata keçirilməsinə xüsusi diqqət yetirilir. Ailə təbabəti kafedrası öz işini bu sahədə dünyada aparıcı olan universitetlərin proqramlarına uyğun qurur".

# Əsgər üçün ürək sözləri

## ATU-nun müəllim və tələbələri “Əsgər kitabxanası”na yüzlərlə kitab toplayıb

**Azərbaycan Tibb Universitetinin əməkdaşları təkcə həkim-müəllim kimi öz vəzifələrini peşəkarlıqla yerinə yetirmir, eyni zamanda ictimai fəallıqları ilə də fərqlənirlər. Belə əməkdaşlarımızdan biri də Bioloji kimya kafedrasının baş müəllimi Firəngiz Quliyevadır. Onu həmişə şəhid ailələrinin, qazilərin yanında görmək olar. Onlara o qədər isinişib ki, öz ailələrinin üzvü, doğmaları, yaxınları hesab edirlər.**



F.Quliyeva “Əsgərə xatirə kitabı” layihəsinin fəxri üzvüdür. 7 ildir ki, xeyirxah missiya ilə - şəhid ailələri və qazilərin problemlərinin aradan qaldırılması ilə məşğuldur. Layihənin fəaliyyət istiqamətləri geniş olduğundan, təkcə rayonlarda deyil, eyni zamanda işğaldan azad olunmuş ərazilərimizdə yerləşən hərbi hissələrdə də olur, Vətənimizin keşiyində duran zabit və əsgərlərimizlə görüşürlər.

İndi isə F.Quliyeva universitetin müəllim və tələbələrini maraqlı bir aksiyaya cəlb edib. Belə ki, hər kəs şəxsi kitabxanasından “Əsgər kitabxanası”na bir kitab hədiyyə edir. Aksiya müəllim və tələbələr tərəfindən maraqla qarşılanıb. Bəziləri hətta 2-3 kitab gətirib. Nəticədə qısa müddətdə 500-dən çox kitab toplanıb.

Firəngiz xanım deyir ki, bu yaxınlarda Müdafiə Nazirliyinin əməkdaşları və “Əsgərə xatirə kitabı” layihəsinin bir neçə üzvü ilə işğaldan azad olunmuş ərazilərimizdəki 3 hərbi hissədə olublar. Toplanmış kitabları hərbi hissələrin kitabxanalarına təhvil veriblər. Orada əsgərlərlə görüşüb, səmimi söhbətlər edib, şəraitləri ilə yaxından tanış olub, hər bir əsgərə hədiyyə paketi veriblər: “Əsgərlər bizi görüncə çox sevindilər. Onlara oxumaq üçün kitab apardığımızı bilincə, sevinclərinin həddi-hüdudu olmadı. Naharı “Əsgər yeməkxanası”nda onlarla birgə etdik. Yeməkləri dadlı və keyfiyyətli idi. Əsgərlər arasında bir nizam-intizamın olduğu hiss olunurdu. Gördüyüm şərait məni çox sevindirdi, hiss etdim ki, Vətənimiz etibarlı əllərdədir. Olduğumuz bütün hərbi hissələrdə bu ab-havanın şahidi olduq. Digər hərbi hissələrin kitabxanalarını zənginləşdirmək üçün aksiyanı davam etdirmək niyyətindəyəm”.

Nəzər yetirdiyimiz kitablar arasında Azərbaycan klassiklərinin, türk yazarlarının əsərləri gözümə dəyir. 44 günlük Vətən savaşında şərəfli döyüş yolu keçmiş şəhidlərimizə həsr olunmuş kitablar da var. Kitablara ürək sözlərini yazanlar da olub. Onlardan bir neçəsini oxucularımızla da tanış etmək istədim.

Rüfət adlı tələbə yazır: “Salam, əsgər! Biz əmin-amanlıqda yaşamağımız üçün sənə borcluyuq. Ümid edirəm ki, bu kiçik təşəkkür hədiyyəmi bəyənərsən. Bu soyuq qış günündə yazdığım bu sətirləri oxuduqca için isinsin”.



Ürək sözləri çoxdur. Hansını qeyd edəcəyimi bilmirəm. Oxuduqca sevinirsən ki, hər kəs Vətənin müqəddəsliyini yaxşı dərk edir. Tələbə Nuridə Əlizadənin ürək sözlərindən: “Salam, əsgər! Mən Azərbaycan Tibb Universitetinin tələbəsiyəm. İlk öncə sizə güc-qüvvət, səbr arzulayıram. İnşallah, sağ-salamat evinizə qayıdasınız. Bu kitab motivasiya xarakterlidir. Ümid edirəm ki, sizə motivasiya verəcəkdir. Sevsəniz nə xoş mənə. Bizim üçün soyuq-qar demədən Vətənimizin keşiyində dayandığınız üçün sizə minnətdarıq. Sizi tanımasaq da, sizə çox borcluyuq. Bizim salamımızı əsgər yoldaşlarına da çatdırın”.

Şəhid anasının əsgərə yazdığı ürək sözlərindən isə kövrəlməyə bilmirsən. Həm də daxilən bir qürur hissi keçirir və bir daha əmin olursan ki, Vətənin azadlığı uğrunda ölümün gözünə dik baxan qəhrəman oğulları məhz belə analarımız dünyaya gətirib. Şəhid İlkin Məmmədzadənin anası Fatma xanım Sumqayıt şəhidlərinə həsr olunmuş, özünə məxsus “Seçilmişlər” kitabını “Əsgər kitabxanası”na hədiyyə edib: “Mən şəhid baş leytenant İlkin Məmmədzadənin anası, Sumqayıt şəhidlərinə həsr olunan bu kitabı sizin kitabxanaya bağışlayıram. Kitabı vərəqlədikcə Sumqayıt şəhərində doğulub-böyüyən və Vətən uğrunda şəhid olan igid oğulların həyat hekayəsi ilə tanış olacaqsınız. Bu kitabı oxuyan hər kəs şəhid adının necə uca olduğunu, şəhidlərin həqiqətən də seçilmişlər olduğunu dərk edəcək. Arzu edərdim ki, hər bir əsgər xidmətini layiqincə başa çatdırıb, sağ-salamat öz anasının yanına qayıtsın”.

8 yaşlı övladımızın da Vətən eşqi ilə böyüdüyünü görüncə, ürəyin dağa dönür. Belə ki, Yusifzadə soyadlı tələbənin dayısı qızı yazır: “Ey əsgər, bilirəm, sənin üçün çox çətindir. Anan, atan, bacın, qardaşın üçün çox darıxırsan. Onlar da sənin üçün darıxırlar. Vətəni yaxşı qoru. Arzularını gerçəkləşdirə bilərsən. Mən bu məktubu sənə ürəkdən yazdım. Hələlik, əsgər!”

Universitetimizdə keçirilən bu aksiya olduqca təqdirəlayiqdir. Doğrudan da böyükdən-kiçiyə hamı bir olanda, çəkici bir yerə vuranda Vətən güclü olur, bölünməz olur. 44 günlük Vətən müharibəsindəki kimi. Əsgərimiz hər zaman Vətəni arxasında və ürəyində hiss etməlidir!

**Qabil ABDULLAYEV**

**ATU-nun Neyrocərrahlıq kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının Neyrocərrahiyyə şöbəsinin müdiri Cəmil İskəndərov bu günlərdə Neyromuskulyar skolioz əməliyyatı həyata keçirib.**

# Ağır onurğa əməliyyatı uğurla həyata keçirilib



Qeyd edək ki, adıçəkilən xəstəliyə anadangəlmə sinir sistemində problemi olan uşaqlarda təsadüf olunur və ağır əməliyyat hesab edilir.

Həkimin bildirdiyinə görə, əməliyyat etdiyi 17 yaşlı qızın anadangəlmə sinir problem olub: “Xəstəlik pasiyentimizin yerişində və digər hərəkətlərində problem yaratdığı üçün valideynləri əməliyyat üçün bizə müraciət edib. Xəstədə əyrilik dərəcəsi həddindən artıq çox olduğundan, icra etdiyimiz əməliyyat ağır onurğa əməliyyatı hesab olunur. 4-5 saat çəkən əməliyyat uğurla başa çatdı. Biz gənc xanımın əməliyyat vasitəsi ilə onurğa sütununun əyriliyini düzəltməyə, hərəkətində olan problemləri aradan qaldırmağa çalışacağıq”.

Qeyd edək ki, bu, C.İskəndərovun icra etdiyi onlarla ağır əməliyyatlardan biridir.

# Tədris Cərrahiyyə Klinikası müasir cihazla təmin olunub

**Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının Ürək kateterizasiyası və angioqrafiya laboratoriyası yeni cihazla təmin olunub. FFR (Fraksiyalı Cərəyan Ehtiyatı) adlandırılan bu cihaz kardioloqların işinin xeyli yüngülləşməsinə səbəb olacaq.**

Bu barədə “Təbib” qəzetinə adıçəkilən laboratoriyanın müdiri, dosent Qalib İmanov məlumat verərək, FFR cihazının özəlliklərini diqqətə çatdırıb: “Doğrudur, cihazın pasiyentlər üçün elə bir fərqi olmasa da, biz həkimlərin işinin xeyli yüngülləşməsinə səbəb olacaq. Vaxta və məkana qənaət edilir. Stend qoyulmamışdan öncə ürək damarlarında darlığın səviyyəsini ölçmək mümkün olur. Bəzən pasiyentlərdə orta səviyyəli darlıqlara rast gəlirdik. Ora stend qoyulmasında qərar verməyə çətinlik çəkirik. Yeni bu cihaz vasitəsilə damarlarda darlığın ciddiliyini və həmin daralmaya müdaxilə etməyin mümkün olub-olmadığını asanlıqla müəyyənləşdirəcəyik”.

# Böyük şəhərlərin xəstəliyi – yaz allergiyası

## Yazın ən aktiv xəstəlikləri - pollinoz və ya mövsümi allergiya

**Son zamanlar bir çox insanın əziyyət çəkdiyi xəstəliklər sırasında allergiya da var. Bu xəstəlik istər uşaqlar, istərsə də böyüklər arasında da çox geniş yayılıb. Bəs allergiya sağala bilən xəstəlikdirmi və onunla necə mübarizə aparılmalıdır?**

Bu sualları ATU-nun Tədris Terapevtik Klinikasının allerqoloqu, t.e.n, dosent Tahirə Pənahova cavablandırıb.

Həkim bildirib ki, pollinoz geniş yayılmış allergik xəstəlikdir və tibdə bitki tozu allergiyası adlanır. Onun saman atəşi, polen rinopatiyası, polen bronxial astma, allergik rinokonjunktivit kimi bir sıra adları da var: “Yaz mövsümü üçün xarakterikdir. Bəzi ağaclara, otlara, çiçəklərə qarşı insanın nəfəs yollarında baş verən allergik reaksiyadır. Buna fəsli xəstəlik də deyilir. Pollinoz latın sözündən götürülüb və tərcümədə tozcuq mənasını verir. Alimlərin məlumatlarına əsasən, dünya əhalisinin 10-15%-i bitki tozcuqlarına qarşı allergiyadan əziyyət çəkir. Pasientlərin çox hissəsini meqapolisdə yaşayan 10-30 yaşlı cavanlar təşkil edir. Kənd əhalisində pollinoza az təsadüf olunur. Xəstəliyə kişilərə nisbətən qadınlar daha çox meyllidir”.

T.Pənahovanın sözlərinə görə, əsas piki aprel ayına düşən pollinoz - burun və gözlərin selikli qişalarının ödemi, burun tutqunluğu, zökəm, asqırma, öskürək, boğulma, iybilmənin pozulması, qaşınma və dəri səpkiləri ilə xarakterizə olunur.

Pollinozun yaranma səbəblərindən danışan həkim vurğulayıb ki, onun inkişafında allergen rolu bitki və ağacların tozcuqları oynayır: “10-15 mikron böyüklüyündə olan kiçik



tozcuqlar xəstənin dəri və selikli qişalarına çökərək, orqanizmdə spesifik reaksiya törədirlər. Pollinozun kəskinləşmə dövrü bir sıra ağac və bitkilərin çiçəklənmə mərhələsi ilə üst-üstə düşür. Palıd, qoz, ağcaqayın ağaclarının tozcuqlarına allergiyası olan xəstələrdə aprel və may aylarında kəskinləşmələr baş verir. Yovşan, ambroziya allergik reaksiya verən insanlar avqust və sentyabrda xəstəliyin əlamətlərindən əziyyət çəkirlər. Klinik təzahürlərin ifadəliliyi havadan asılıdır. Küləkli quru havada uçan tozcuqların konsentrasiyası yüksəlir, pollinozun simptomları güclənir. Yağışlı, nəm havada isə miqdarda tozcuğa rast gəlindiyindən əlamətlər yüngül olur. Pollinozun yaranmasında irsi meyillilik həlledici rol oynayır. Xəstəliyin əlamətləri 2 həftədən 5 həftəyə qədər davam edir”.

Mütəxəssis bildirib ki, xəstəlik 2 mərhələdə inkişaf edir: “Birinci dövrdə xəstəliyin klinik təzahürləri müvəqqəti olur. Pasiyentlər burun, udlaq, qulaq və traxeya nahiyəsinin qaşınmasından şikayətlənirlər. Xəstənin göz qapaqları ödemli və hiperemiyalı olur. Fasiləsiz asqırma tutmaları xarakterik əlamət sayılır. Burundan selikli ifrazatlar axır. İşıqdan qorxma, gözlərin sulanması ilə müşayiət olunan allergik konyuktivit inkişaf edir. Allergenin təsirindən 6-8 saat keçdikdə, ikinci faza başlanır. İltihabi reaksiyalar güclənir. Bəzi hallarda “tozcuq intoksikasiyası”- zəiflik, qıcıqlanma, iştahanın azalması qeyd olunur. Mövsüm sona çatdıqda, xəstəliyin əlamətləri də aradan qalxır”.

Pollinozun profilaktikasından da danışan həkim əlavə edib ki, xəstəliyə diaqnoz qoymaq çətinlik törətmir və müalicə allerqoloqlar tərəfindən aparılır: “Pollinozlu pasiyentlərin allergenlə təması məhdudlaşdırılmalıdır. Əgər imkan varsa, agac və bitkilərin çiçəklənmə dövründə digər iqlim zonasına getmək lazımdır. Quru və küləksiz günlərdə otağın havası tez-tez dəyişdirilməlidir. Mənzilə allergenin daxil olmasının qarşısının almaq üçün pəncərəyə qalın və nəm parça vurulmalıdır. Xəstələr küçədən evə daxil olduqda, duş qəbul etməlidir. Kəskinləşmə dövründə allergeni uzaqlaşdırmaq məqsədilə gündə bir neçə dəfə gözləri yumaq və boğazı yaxalamaq məsləhətdir”.

**ATU-nun Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə Psixiatriya kafedrasının assistenti, həkim-psixiatr Nəsimi Vahabovla görüş keçirilib. O, tələbə auditoriyasında "Stres və təşviş pozuntuları" mövzusunda məruzə ilə çıxış edib.**

# Həkim-psixiatr stres və təşviş pozuntularından danışıb

## Maraqla qarşılanan görüşün mövzusunu tələbələr özü seçmişdi



N.Vahabov təqdimatdan öncə özü haqda qısa məlumat verərək tələbəlik illərindən psixiatriya sahəsini seçdiyini, 2007-ci ildən isə Məhkəmə-Psixiatrik Ekspertiza Mərkəzində işlədiyini, zaman-zaman Türkiyədə kurs və seminarlarda, konfranslarda iştirak etdiyini deyib. Tələbə vaxtından mühazirə tipli, birtərəfli çıxışları sevmədiyini söyləyən həkim-psixiatr, bugünkü müzakirələri də interaktiv şəkildə keçirməyə çalışacağını bildirib. Qeyd edib ki, adıçəkilən mövzu görüşdən əvvəl tələbələr arasında aparılan sorğunun nəticələrinə görə seçilib: "Çoxluq stres və təşviş pozuntularından danışmağımızı istədi. Əslində hər iki mövzuya dair ayrıca təqdimat etmək olardı. Amma vaxt məhdudiyyətini nəzərə alaraq mövzuları birləşdirdik. Stres haqqında ilk təsvir kanadalı patoloq Hans Selyeyə məxsusdur. O öz fikrini obrazlı şəkildə ifadə edərək deyirdi ki, stres yalnız ölüm halında bizi tərk edir. Yəni nə qədər ki sağıq, həyatdayıq, stres daim bizimlədir. Stres deyəndə hərəmizin ağlına bir şey gəlir. Bunu stresin kənar təsirlərinə qarşı qoruyucu funksiyamızın məcmusu adlandırırıq".



Stresin insana və onun sağlamlığına zərəri, ondan qurtulma yolları barədə danışan N.Vahabov, stresi əmələ gətirən amillər üzərində xüsusi dayanıb. Bildirib ki, qorxu, həyatımızdakı dəyişikliklər, yüksək hərarət, ürəkdöyünmə, təngnəfəslik, əlin tərləməsi stresin əsas əlamətləridir: "İlk mərhələ səfərbərlik mərhələsidir. Adından da göründüyü kimi, insan hər hansı bir stres amili ilə qarşılaşdıqda, narahatlıq yaranır və bu narahatlıq bəzi simptomlarla təzahür edir. Bundan sonra müqavimət mərhələsi gəlir. Bu mərhələdə insan daha çox sərbəstləşir, rahatlaşır və orqanizmin dirəniş qabiliyyəti yüksəlir. Təbii ki, müqavimət gücü hər kəsdə eyni deyil və fərdi xarakter daşıyır. Tükənmə mərhələsi isə potensial mərhələdir. Əgər stres uzun müddət davam edərsə və yüksək səviyyədə qalarsa, tükənmə mərhələsinə gətirib çıxarır. Tükənmə mərhələsinin pik nöqtəsi ölümdür. Buna qədər müxtəlif fəsadlar, xəstəliklər, patologiyalar yarana bilər".

Həkim-psixiatr, insanın bilərəkdən və bilməyərəkdən özünə stres amili yaratdığını da vurğulayıb. Onun sözlərinə görə, belə amillərdən biri də qorxu filmlərinə baxmaqdır: "Bu filmlər həyatı rəvan olan cəmiyyətlər üçündür. Bizim cəmiyyət isə streslə zəngindir. Gözlənilməz məqamlarla tez-tez qarşılaşırıq. Onu da deyim ki, kiçik streslərlə "bombalanmaq" insan üçün faydalıdır və lazımdır. Çünki bunlar olmadan insan xarici təhlükələrə qarşı müqavimət formalaşdıra bilməz. Böyük stres epizodu isə uzun müddət davam edərsə, insanı aşındırır. Belə vəziyyətlə qarşılaşanlar enerji potensialının tükənməsindən, gücsüzlükdən və yorğunluqdan şikayətlənirlər. Yəni psixikada da müqavimət gücü fərqlidir. Kiməsə güclü təsir göstərən hansısa amil bir başqasına zəif təsir göstərir".

N.Vahabov məruzəsində təşviş pozuntularından da bəhs edib: "Məşhur filosof Con Lokkun təbirincə desək, təşviş gələcəkdə baş verə biləcək hadisələr haqqında narahatlıq hissidir, hansı ki onlar bir çox hallarda baş vermir. Təşviş üçün də risk amilləri, onu yaradan səbəblər, simptomlar var. Bunlar somatik və psixoloji simptomlardır. Həyəcan, gələcəklə bağlı narahatlıq hissi təşviş yaradır. Ən çox yayılmış növləri aqrofobiya, spesifik, sosial fobiyalar və panik pozuntudur. İzdihamdan, təkbaşına səyahət etməkdən, yüksəklikdən, qapalı yerlərdən qorxmaq müxtəlif təşviş pozuntularıdır. Daha çox hallarda panik pozuntu nəticəsində əmələ gəlir. Bəzi insanlar olmayan təhlükədən qorunduqlarını və hətta bunu bacardıqlarını düşünürlər. Əsas risk faktorlarından biri də travmalardır".

Həkim-psixiatrın fikrincə, diqqət mərkəzində olmaq istəməmək, özünü aşağı qiymətləndirmək sosial fobiyalar içərisində ən geniş yayılanlardır. Spesifik fobiyaların sayı ədəbiyyatda 500 göstərilsə də, reallıqda daha çoxdur. Öz əlindən qorxmaq ən qeyri-adi spesifik fobiyalardandır.

Qorxu ilə fobiyanın fərqinə də aydınlıq gətirən mütəxəssis qeyd edib ki, ilanı görüb qorxmaq adekvat qorxu hissidir, ilan qorxusunu yaddan çıxarmamaq isə artıq fobiyadır: "Panik pozuntunun əsas əlaməti isə qəfil gəlməsi, döş sümüyünün arxasında şiddətli ağrı, sinənin sıxılması və çox pis bir şeyin olacağı barədə düşüncələr, təngnəfəslik, tərləmə, rəngin qızarması və ya avazıması-dır. Simptomlar tədricən deyil, sürətlə inkişaf edir. Generalizə olunmuş təşviş pozuntusu isə tədricən formalaşır və bu problemdən əziyyət çəkən şəxslərdə qeyri-müəyyən diskomfort vəziyyət yaranır. Bu problemləri aradan qaldırmaq üçün ilk növbədə həmin şəxslərə nə yaşadıqlarını anlatmaq, onları tam sağalacaqlarına inandırmaq və nəhayət cəmiyyətdə, dünyada bu cür şəxslərin çoxluğu barədə məlumatlandırmaqdır ki, mənfi mənada özlərinin qeyri-adi olduğunu düşünməsinlər. Lazım gələrsə, nəfəs təmrinləri və dərman müdaxiləsi də həyata keçirilə bilər".

Tədbirin gedişində xüsusi test sualları vasitəsilə tələbələrin psixoloji çevikliyi də yoxlanılıb və hər kəs özünün streslərə qarşı müqavimət gücünün dərəcəsini əyani olaraq öyrənib.

Auditoriya ilə səmimi ünsiyyət yaradan Nəsimi Vahabov sonda tələbələrin mövzuya dair suallarını cavablandırıb və onlarla qarşılıqlı fikir mübadiləsi aparıb.

**A.KAMRANOĞLU**

# Sonsuzluğun səbəbini təkcə qadında axtarmaq düzgün deyil

## Tanınmış mama-ginekoloq deyir ki, hamiləlik üçün ideal dövr 20-30 yaş aralığıdır

**Cəmiyyətdə həmişə olduğu kimi, bu gün də ginekoloji problemlər aktual olaraq qalır. Bu barədə suallarımızı ATU-nun II Mamalıq-ginekologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru, mama-ginekoloq, cərrah Nərgiz Şəmsəddinskaya cavablandırıb.**

O, bildirib ki, ginekoloji xəstəliklər içərisində yayılmasına görə iltihabi xəstəliklər birinci yerdədir. Müraciət edən xəstələrdə ilk olaraq spesifik ginekoloji müayinələr - yəni güzgülərdə baxış, bimanual müayinə aparılır və ümumi yaxma götürülür. Cinsi yolla keçən infeksiyanı aşkar etmək üçün polimeraz zəncirvari reaksiyadan (PZR) istifadə edilir. Uşaqlıq boynunda patoloji proses müşahidə edilərsə, pap yaxma götürülür və kolposkopiyanın nəticəsindən asılı olaraq, xəstələr üçün müalicə taktikası seçilir. Qadınların müayinəsi zamanı qeyri-invaziv obyektiv üsul olan ultrasəs müayinəsindən (USM) çox geniş istifadə edilir.



Həkim şəxsi praktikasına əsasən, iltihabi xəstəliklər, birincili və ikincili sonsuzluq, həmçinin inkişafdan qalmış hamiləliklə bağlı müraciətlər olduğunu qeyd edir. Mama-ginekoloqun sözlərinə görə, bu cür problemlər ilk hamiləlik zamanı daha çox müşahidə edilir. Müasir dövrdə müayinə üsullarının və avadanlıqların artmasına baxmayaraq, belə narahatlıqlara tez-tez rast gəlinir. Birincili və ikincili sonsuzluğun bir çox səbəbləri var. Sonsuzluğun səbəbləri arasında həm qadın, həm də kişi sonsuzluğu olduğu üçün ailənin hər iki üzvü yoxlanılmalıdır. Bundan əlavə, erkən düşük təhlükəsi, inkişafdan qalmış hamiləlik, eləcə də 12 həftəyə qədər itkilər 50 faiz hallarda atadan asılıdır. Bu baxımdan təkcə qadının deyil, kişinin də müayinəyə cəlb edilməsi vacibdir.

N.Şəmsəddinskaya ginekoloji xəstəliklərdə qohum nikahların roluna da toxunaraq qeyd edir ki, bu hallarda düzgün anamnezin toplanması, müayinə üsullarının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir: "Çox zaman genetik mütəxəssislə də məsləhətləşirik. Həyata keçirilən kompleks müayinələr və müalicələr öz müsbət təsirini göstərir. Çətin vəziyyətlərdə yeni texnologiyanın imkanlarından da bəhrələnərək süni mayalanma, embrionların genetik yoxlanılmasını aparırıq və nəticədə hamiləlik baş tutur".

Müsahibimiz ana olmağa hazırlaşan qadınlarla yanaşı, qız uşaqlarının da ginekoloji müayinədən keçməsinin vacibliyini diqqətə çatdırıb. O, əksər hallarda valideynlərin qızlarını ginekoloji müayinəyə gətirmək istəmədiklərindən təəssüfləndiyini bildirsə də, son dövrlərdə ginekoloqlara erkən müraciət edənlərin sayının çoxaldığını, bunun müxtəlif xəstəliklərin vaxtında aşkar edilməsində mühüm əhəmiyyəti olduğunu söyləyib. Yeniyetmə yaşlı uşaqların müraciətlərinin səbəbləri arasında aybaşı pozulmaları aparıcı yer tutur.

Müayinə üsullarından söz açan həkim, patologiyadan asılı olaraq müayinə və müalicə üsullarının seçimində digər sahələrin mütəxəssisləri ilə birgə fəaliyyət göstərməyin vacibliyini vurğulayıb: "Əgər endokrin pozulmalar varsa, qanda hormonal fon öyrənilməlidir. Metobolik sindrom, şəkərə meyllilik, yumurtalıqların polikistoz sindromu zamanı müayinə və müalicəni endokrinoloqla birgə aparmaq lazımdır".

Bütün mama-ginekoloqların ilk növbədə təbii doğuşa üstünlük verdiklərini deyən mütəxəssisin sözlərinə görə, doğuşun cərrahi yolla aparılması hallarının faizi yüksəlsə də, aparılan düzgün tibbi maarifləndirmə hamilə qadınların fikirlərini dəyişməsinə səbəb olur. Əvvəllər çanağın anatomik ölçülərinə xüsusi fikir verilirdisə, bu gün hamilə qadında anatomik dar çanaq yox, doğuş zamanı meydana çıxan klinik dar çanaq (döl başı ilə çanağın ölçülərinin uyğun gəlməməsi) anlayışından istifadə olunur. Yəni qadın çanağının ölçüləri kiçik olsa da, dölün ölçüləri klinik olaraq uyğundursa, doğuşun təbii yolla aparılmasında problem yoxdur. Doğuş zamanı ana və ya döl tərəfindən göstərişlər olarsa, təcili kesar əməliyyatı aparılmasına qərar verilir.

Ən obyektiv müayinə üsulu kimi tanınan kardiotokoqrafiya (KTQ) vasitəsilə hətta 32 həftəlikdən yuxarı olan hamiləlikdə dölün bətndaxili vəziyyətini qiymətləndirməyin mümkünlüyünü deyən həkim, müayinə zamanı dölün vəziyyətində hər hansı bir dəyişiklik meydana çıxarsa, həftəsindən asılı olmayaraq hamiləliyi müvafiq üsulla başa çatdırmağı məsləhət görür. Son illərdə neonatoloji xidmətin xeyli inkişaf etməsi vaxtından əvvəl doğulmuş, hətta az çəkili və zəif yenidoğulmuşları həyatda saxlamağa imkan yaradır.

Həkim müxtəlif ginekoloji xəstəliklərin müalicəsində fərqli cərrahi müdaxilələrin tətbiqindən də danışıb. Bildirib ki, daha çox rast gəlinən müxtəlif ölçü və formalı miomaların müalicəsində cərrahi müdaxiləyə həmişə ehtiyac olmur. Amma qarın nahiyəsində ciddi ağrıların baş verməsi, miomaların böyüməsi və şiddətli qanaxmalar cərrahi müdaxiləyə göstərişdir. Bu həm də fərdi xarakter daşıyır. Xəstələrə hərtərəfli baxış aparılmalı və lazımi taktika seçilməlidir. Mioma əməliyyatı əvvəllər ancaq laparotomiya üsulu ilə aparılırdısa, müasir tibdə laparoskopiya və histeroskopiya üsullarından da geniş istifadə olunur.

Papilloma virus daşıyıcısı olan qadınlarda uşaqlıq boynu xərçəngi riskinin artdığını və bu hal aşkarlanarsa, mütləq kolposkopiya müayinəsi aparmağın zəruriliyini vurğulayan N.Şəmsəddinskaya, bəzi ginekoloji xəstəliklərin hətta boşanmalara gətirib çıxarmasına da diqqət çəkib. Boşanma səbəbləri arasında sonsuzluq, cinsi həyatda yaranan davamlı problemlər və s. xüsusi yer tutur: "Sonsuzluğa və təkrar düşüklərə gətirib çıxaran amillər cinsi orqanların anadangəlmə qüsurları, hormonal problemlər, o cümlədən qohum nikahlarıdır. Cinsi əlaqə zamanı uyğunsuzluq və digər yarana biləcək səbəblər ailənin bünövrəsinin sarsılmasına səbəb ola bilər. Əgər cinsi əlaqə zamanı qanlı ifrazat varsa, mütləq həkimə müraciət etmək lazımdır. Çünki cinsi əlaqədən sonra qanlı ifrazatın olması təhlükəli, xərçəngönü xəstəliklərin erkən mərhələdə müayinəsini şərtləndirən əlamətlərdir".

Həkimin sözlərinə görə, mütəxəssisə çox gec müraciət edilməsi və bəzən qızların vaxtında ailə qurmaması da ginekoloji problemlərin artmasına rəvac verən əsas səbəblərdəndir. Hamiləliyin təxminən 20-30 yaş arasında reallaşmasını uyğun bilən mama-ginekoloq, gənc qadınlara, xüsusilə də qız uşaqlarına erkən müayinəyə gəlməyi, yumurtalıqların vəziyyətini qiymətləndirmək üçün ən azı ultrasəs müayinəsindən keçməyi məsləhət görüb.

# Əczaçılıq ixtisasının layiqli nümayəndəsi

**Azərbaycan Tibb Universitetinin Farmakoqnoziya kafedrasının müdiri, professor Cavanşir İsa oğlu İsayevin anadan olmasından 60 il keçir.**

C.İsayev 9 aprel 1963-cü ildə Astara rayonunda anadan olub. 1983-cü ildə Azərbaycan Tibb İnstitutunun Əczaçılıq fakültəsinə daxil olub və 1988-ci ildə həmin fakültəni fərqlənmə diplomu ilə bitirib. İnstitut Elmi Şurasının qərarı ilə Farmakoqnoziya və botanika kafedrasına baş laborant təyin edilib. 1989-92-ci illərdə farmakoqnoziya ixtisası üzrə aspirantura təhsili alıb. 1996-2017-ci illərdə Farmakoqnoziya və botanika kafedrasında assistent, baş müəllim, dosent, professor vəzifələrində çalışıb. 2017-ci ildən indiyədək Farmakoqnoziya kafedrasının müdiridir. C.İsayev 1995-ci ildə «Əczaçılıq kimyası, farmakoqnoziya» ixtisası üzrə namizədlik dissertasiyasını, 2008-ci ildə isə doktorluq dissertasiyasını müdafiə edərək əczaçılıq elmləri doktoru alimlik dərəcəsinə, 2012-ci ildə isə professor elmi adına layiq görülüb.

Professor Cavanşir İsayev Universitetin ictimai həyatında da yaxından iştirak edir. Bacarıqlı və işgüzar alim Əczaçılıq fakültəsinin Elmi Şurasının üzvüdür. Müxtəlif illərdə ATU-nun Apellyasiya Komissiyasının sədr müavini və üzvü olub. BFD 4.02 Dissertasiya şurasının seminarının sədri və şuranın üzvü, BED 4.09 Dissertasiya şurasının, eləcə də Səhiyyə Nazirliyinin Farmakoloji və Farmakopeya Ekspert Şurasının üzvüdür. O həm də Milli Elmlər Akademiyasının Elmi Tədqiqatların Əlaqələndirmə Şurasının, Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun Elmi Şurasının, "Əczaçılıq və Farmakoterapiya" jurnalının redaksiya şurasının üzvüdür. Azərbaycanın "Qırmızı Kitabı"nın III nəşrinin həmmüəlliflərindən biridir.



Professor C.İsayev 180-dən artıq elmi əsərin, 3 dərsliyin, 5 dərs vəsaitinin, 2 monoqrafiyanın və 6 ixtiranın sahibidir ki, bunlardan da ikisi istehsal prosesində tətbiqini tapıb. Onun doktorluq dissertasiya işində yerinə yetirdiyi və sonradan Səhiyyə Nazirliyində dərman vasitəsi kimi qeydiyyata alınmış "Fitotussin" şərbəti yuxarı və aşağı tənəffüs yollarının infeksion-iltihabi xəstəliklərində təyin edilir. Məhz bu preparat sayəsində minlərlə xəstə müxtəlif patologiyalardan şəfa tapıb.

C.İsayevin kafedraya rəhbərliyi dövründə Türkiyə, Fransa, Rusiya və Ukraynanın əczaçılıq yönümlü universitetləri ilə sıx elmi əməkdaşlıq həyata keçirilir. Xüsusən kafedranın gənc əməkdaşları və doktorantları Türkiyənin Hacəttəpə, Ege, Anadolu, Atatürk və Qazi universitetlərində elmi-pedaqoji fəaliyyətlə məşğul olurlar. Onun rəhbərliyi altında Farmakoqnoziya kafedrasında 5 əczaçılıq üzrə fəlsəfə doktoru dissertasiya işləri yerinə yetirilir.

Cavanşir müəllim yüksək pedaqoqluq məharəti, qayğıkeşliyi, səmimiliyi və mədəni rəftarına görə ATU-nun professor-müəllim heyəti və tələbələrinin hörmət və rəğbətini qazanıb.

Azərbaycanda əczaçılıq ixtisasının layiqli nümayəndəsi, tədris, elm və təcrübənin çətin yollarını şərəflə keçən professor Cavanşir İsayevi 60 illik yubileyi münasibətilə təbrik edir, ona yeni-yeni uğurlar arzu edirik.

**Farmakoqnoziya kafedrasının kollektivi**

# Yüksək səviyyəli klinisist həkim və pedaqoq

***Azərbaycan Tibb Universitetinin Fizioterapiya və tibbi reabilitasiya kafedrasının professoru, tibb elmləri doktoru Nadir Hüseynovun anadan olmasından 70 il ötür.***



Nadir İsmayıl oğlu Hüseynov 4 aprel 1953-cü ildə Füzuli rayonunun Şıxlı kəndində ziyalı ailəsində anadan olub. Orta təhsilini Bakı şəhərindəki 115 saylı orta məktəbdə alıb. 1971-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun (indiki ATU) Müalicə-profilaktika fakültəsinə daxil olub və tələbəlik illərində M.Nağıyev adına Təcili Yardım Xəstəxanasında tibb qardaşı işləyib. 1978-ci ildə Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında həkim və böyük həkim kimi çalışıb. 1979-80-ci illərdə Xarici Dillər İnstitutunun nəzdində iki illik ingilis dili kursunu bitirib. Elmə olan həvəsi onu SSRİ Tibb Elmləri Akademiyasının akademik V.A.Nasonova adına Elmi-Tədqiqat Revmatologiya İnstitutunun aspiranturasına gətirib. 1985-ci ildə dissertasiya işi müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsi alıb. O, Bakıya qayıdaraq Azərbaycan Elmi-Tədqiqat Kurortologiya və Fizioterapiya İnstitutunda (indiki Tibbi Bərpa İnstitutu) elmi işçi kimi fəaliyyətə başlayıb.

N.Hüseynov 1990-cı ildə Moskvada doktorluq dissertasiyasını müdafiə edib, yenidən Vətənə dönüb. Artroloji xidməti gücləndirmək məqsədilə Azərbaycan Səhiyyə Nazirliyinin və Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun Elmi Şurasının qərarı ilə ixtisaslaşmış "Artroloji" şöbə yaradaraq elmi-tədqiqat işini davam etdirib.

"Neft və qaz sənayesində çalışan işçilərin sağlamlığının qorunması dövlət proqramı"nın həyata keçirilməsi məqsədilə 2000-ci ildə ixtisaslaşdırılmış "Revmatologiya və endokrinologiya" şöbəsinin rəhbəri kimi, Mərkəzi Neftçilər Xəstəxanasına dəvət olunub və 10 il müddətində yorulmadan orada çalışıb. Göstərdiyi xüsusi xidmətlərə görə Azərbaycan Dövlət Neft Şirkətinin fəxri fərmanı ilə təltif edilib. 2004-cü ildə Ədliyyə Nazirliyinin nəzdində "SETAL-Revmatik Xəstəliyə Tutulmuş Gənclərə Kömək" İctimai Birliyini yaradaraq bu qrup xəstə gənclərin tibbi və sosial problemlərinin həlli istiqamətində fəaliyyət göstərib.

Professor N.Hüseynov Azərbaycan Reabilitoloqlar Assosiasiyasının, Avropa Antirevmatik Liqasının, Rusiya Revmatoloqlar Assosiasiyasının idarə heyətinin, Avrasiya Revmatoloqlar Cəmiyyətinin üzvü və regional nümayəndəsi, Avropa Enzimoterapevtlər Liqasının regional təmsilçisidir. Mütəmadi olaraq MDB, Amerika və Avropa ölkələrində keçirilən beynəlxalq konqreslərdə və elmi forumlarda elmi məqalələrlə çıxış edir.

O, İctimai səhiyyə fakültəsi Elmi Şurasının üzvü, 154 çap olunmuş elmi işin, 1 tədris, 1 metodik vəsaitin müəllifidir.

Fizioterapiya və tibbi reabilitasiya kafedrasının kollektivi yüksək ixtisaslı klinisist həkim, tələbələrin sevimlisi professor Nadir Hüseynovu yubileyi münasibətilə təbrik edir, yaşının bu müdrik çağında ona möhkəm cansağlığı və yeni-yeni nailiyyətlər arzulayır.

# Karate üzrə yoldaşlıq turniri təşkil olunub

**Aprelin 1-də ATU-nun Tədris İdman Kompleksində karate turniri keçirilib. Məlumat üçün bildirək ki, ötən ilin noyabr ayında keçirilən ölkə çempionatında "Təbib" idman klubunun Karate bölməsindən müxtəlif çəki dərəcələrində 3 tələbə idmançı uğur qazanmışdı. Bu qələbədən sonra universitetdə karate idman növünə maraq daha da artıb.**

Sözügedən yoldaşlıq turnirinin məqsədi aprelin 21-də respublika yığma komandasının tərkibini formalaşdırmaq üçün keçiriləcək seçim turnirinə ATU tələbələrini müəyyənləşdirmək olub. Tələbələrdən qızlar arasında Raminə İsxanova, İlhamə Namazova, Roshanak Moghanloo, Mahsa Palar, Negin Mardaneh, oğlanlar arasında İsmayıl Məhərrəmli, Səfər Əliyev, Fuad Haqverdiyev, Məhəmməd Quluzadə, Məsim Cəfərov müxtəlif çəki dərəcələrində qalib olublar və "Təbib" idman klubu tərəfindən medal, diploma təltif ediliblər.

Bununla yanaşı, yoldaşlıq turnirindən əvvəl "Təbib" idman klubunun sədri, əməkdar məşqçi, beynəlxalq dərəcəli hakim Qələndər Aslanov tərəfindən hakimlər və tibbi personal üçün seminar təşkil olunub. Turnirdə tələbə idmançılardan hakim kimi iştirak edənlər də olub. Artıq neçə ildir hakimlik təcrübəsinə malik olan Samir Hüseynovla yanaşı, Toğrul Abdullayev, İqbal Babazadə, Nesa Xeyrullahniya və Nəstərən Qərari də hakimlik ediblər.

Yarışlarda zədələnmələr zamanı ilkin tibbi yardım göstərmək və gələcək həkimlərin təcrübəsinin artırılması da diqqət mərkəzində olub. Qeyd edək ki, döyüşlər zamanı zədələnən idmançılara ilkin tibbi yardım göstərilməsi məqsədilə dərman və ağrıkəsici spreylər də "Təbib" idman klubu tərəfindən alınıb.



AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların professorları:**
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- II Daxili xəstəliklər kafedrası - 1 yer

**Kafedraların dosentləri:**
- Azərbaycan dili kafedrası - 1 yer (0,75 vahid)
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)
- Patoloji fiziologiya kafedrası - 1 yer
- Patoloji fiziologiya kafedrası - 1 yer (0,5 vahid)
- İctimai fənlər kafedrası - 1 yer
- Epidemiologiya və biostatistika kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Mamalıq və ginekologiya kafedrası - 1 yer
- Ailə təbabəti kafedrası - 2 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,75 vahid)
- Terapevtik stomatologiya kafedrası - 2 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,5 vahid)
- Uşaq cərrahlığı kafedrası - 1 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer (0,25 vahid)
- II Cərrahi xəstəliklər kafedrası - 1 yer
- I Daxili xəstəliklər kafedrası - 1 yer
- Neyrocərrahlıq kafedrası - 1 yer
- Tibb və sağlamlıq elmləri kafedrası - 7 yer

**Kafedranın baş müəllimi:**
- Qidalanma və tibbi ekologiya kafedrası - 2 yer

**Kafedraların müəllimləri:**
- Hərbi cərrahiyyə kafedrası (HTF) - 1 yer (0,5 vahid)
- Hərbi terapiya kafedrası (HTF) - 1 yer (0,5 vahid)
- Azərbaycan dili kafedrası - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədək-dir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**
**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi,14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

### Etibarsız sayılır

Mahmoud Mohammed Al-Toani (qrup 418A6b); Alhasan Raad Fadhil (qrup 117İ4); Yıldız Boyacı Mahmut (qrup 218A7b); Calalov Samir Qurban oğlunun (qrup 317A25); tələbə bileti itdiyi üçün etibarsız sayılır.


Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0007
Sayı 800